# Hindistan rəssamı Mansurun yaradıcılığında ənənəvi incəsənət

**Emil Ağayev**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının sənətşünaslıq fakültəsinin magistrantı
**E-mail:** Emilaghayev93@mail.ru

Miniatür boyakarlığı – orta əsrlərdə Hindistan ərazisində geniş yayılmış incəsənət növlərindən biri olmuşdur. Böyük şöhrət qazanmış Moğol miniatür məktəbi ilə yanaşı, Hindistan ərazisində digər mühüm miniatür məktəbləri mövcud olmuşdur. Belə ki, Racputda, Qucaratda, Pencabda, Dekanda nisbətən müstəqil miniatür məktəbləri fəaliyyət göstərmişdir. Onların bəzilərinin yaranma tarixi Moğol miniatür məktəbinin yaranma tarixindən daha qədimdir.

Ustad Mansur (1590–1624-cü illər) XVII əsrin məşhur Moğol rəssamı və saray sənətçisi idi. O, Cahangir dövründə yaşayıb (1605–1627), bitki və heyvanların təsvir olunmasına üstünlük vermişdir. Mansur Hindistanın təbiət gözəlliklərinin, xüsusilə quşlarının təsvirini yaradan ilk rəssam olmuşdur. Dado quşlarını saraydakı xanımlara həsr edərək müxtəlif rənglərlə və simvolikalarla onların saraydakı mövqelərini vurğulamışdır. Əkbərin (1556–1605) hökmranlığının sonuna doğru ustad adını qazanmış və Moğol imperatoru Cahangir dövründə ona "Nağd al-Asr" (Dövrünün fəqlənmişi) adı verilmişdir. Mansur, həmçinin tarixi əsərlərlə tanış olaraq, müxtəlif əlyazmalara illüstrasiyalar çəkmişdir.

Rəssam Basavan, Miskina və Nanha daxil olmaqla digər rəssamlarla tanış olaraq öz yaradıcılığını formalaşdırırdı. Əkbərin hakimiyyəti dövründə o, "Əkbərnamə" kitabına bir rəssam kimi cəlb edilmiş, lakin onun adı Əbu-Fazil (Əkbər dövründə sarayın bədii tərtibat işlərinə baxan) tərəfindən rəssamların siyahısına daxil edilməmişdir. Buna baxmayaraq, Mansur "Əkbər təbiət qoynunda" əsərini işləyərək Moğol hökmdarına göstərir. Əkbər bu kitabda olan 100 illüstrasiyadan bir çoxunu elə Mansura işləməyi tapşırır. "Əkbərnamə"yə daxil edilən "Əkbər musiqiyə qulaq asır", "Əkbər istirahət edir" (1604, London muzeyi, nüsxə) əsərlərini rəssam öz adının qarşısında "Ustad" adıyla vurğulamışdır.

"Əkbərnaməyə" daxil olan maraqlı əsərlərdən biri "Əkbər Mansurun təsvir etdiyi əsəri görür"dür (bəzi tədqiqatçılar bu kompozisiyanı müstəqil əsər adlandıraraq onun yaradıcılığının son dövrləri üçün səciyyəvi hesab edirlər). Bu əsərdə mərkəzdə Əkbər şah dəbdəbəli geyimdə yandan təsvir edilmişdir. Oturduğu taxtı isə daha çox diqqəti cəlb edir, çünki səfirlərə verdiyi vaxt zaman qumu kimi onun oturduğu taxtı vurğulayır. Əkbərin başındakı nim və mələklər daha dinamik şəkildə əks etdirilmişdir. Əkbərin qarşısında isə üç səfir – Osmanlı, Avropa və digər ölkənin səfirləri öz geyimləri ilə diqqəti cəlb edir. Mansur şahın yanında dayanaraq bu səhnəni təsvir edir. Yaşıl, qızılı və göy rənglərin bir-biri ilə düzgün vəhdətinə baxmayaraq, nisbət pozulmuşdur.

"Musiqiçi" (Britaniya muzeyi) əsərində mərkəzdə musiqidən ruhlanan istedadlı musiqiçi, mimikaları və tamaşaçıya baxışları ilə seçilən obraz verilmişdir. Əsərdə təsvir edilən təbiət və yuxarı hissədə notlar əks edilmişdir. Kompozisiyanı maraqlı edən məqamlardan biri də ornamentlərin incəliklə işlənilməsidir.

Mansurun erkən yaradıcılığında portret və digər səhnələr mühüm yer tutur. "Baburnamə" (1590–95) kitabına həsr edilən illüstrasiyalarda o, rəssamlar yanında köməkçi kimi işləmişdir. "Babur şah bacısı ilə sarayda söhbət edir" əsərini rəssamın bu kitabda olan müstəqil işi adlandırırlar. Erkən portretlərindən "Cahangirin portreti" (1605, Manohar ilə birgə işləmişdir) – bu kompozisiyada şərti olan portretdə əsas mövqeyi təbiətin canlı olması, xüsusilə Cahangirin ən sevdiyi yaz fəslinin təsviridir.

Cahangir dövrünə aid edilən rəssam Mansur tərəfindən bir neçə dəfə müraciət olunan "Cahangir sarayının təsvirinə" həsr etdiyi əsərlər də özünün maraqlı bədii həlli ilə seçilir. Rəssamın bu qəbildən olan "Cahangirin sarayında şənlik", "Ağ saray" və "Cahangir meymun ilə" kompozisiyalarında adı çəkilən sarayın müxtəlif fəsillərdə rənglər vasitəsilə yaratdığı ab-havanı xüsusilə qeyd etmək lazımdır. Bu təsvir üsulundan istifadə qeyri-adi yanaşma kimi sayılmalı deyil, çünki məhz Cahangir təbiəti sevirdi, ona görə də rəssam müxtəlif anlarda çəkilən əsərlərə xüsusi diqqət ayırır. Qızılı, yaşıl, qırmızı, ağ rənglərin bir-biri ilə vəhdətdə verilməsini bu əsərlər üçün spesifik bir nəzəri baxış kimi qeyd etməliyik.

Rəssam insanları da öz fırçasıyla təsvir etmişdi. "Güllər və qızlar" kompozisiyasına ön baxışdan nəzər yetirsək, müxtəlif güllərin təsvirini, rənglərin ritmik təkrarlanmasını görə bilərik. Məkanın arxa plan kimi qeyd edilən, lakin əsas diqqət çəkən insan obrazları üçdə bir döngədə, əsərin ümumi quruluşuna uyğun, dövrün geyimləri ilə əks etdirilərək dinamik şəkildə tamaşaçılara çatdırılır. Lakin obrazlar fərdilikdən məhrumdur. Bu kompozisiyada işıq-kölgənin verdiyi daha güclü effekti xüsusilə vurğulamaq lazımdır.


Şəkil 4. Musiqiçi

I Şah Abbas Cahangirə Sibirdən gətirdiyi quşu hədiyyə edir, lakin bir neçə gün sonra quş ölür. Cahangir Mansura həmin "Sibir quşunu" yaratmağı əmr edir. Həmin kompozisiyada əsas mərkəzdə Sibir quşu, arxa fonda isə iki hökmdarın görüşü təsvir edilmişdi. Xalçanı xatırladan bu əsər dekorativliyi ilə daha çox fərqlənir. Digər bir əsərdə isə rəssam Sibir quşunu sadəcə mənzərə ilə təsvir edərək qırmızı, ağ, mavi rənglərdən geniş istifadə etmişdir.


Şəkil 2. Sibir quşu

Mansur bu dövrdə Kəşmir vadisindən yüz gülün təsvirini yaratdı. "Qırmızı lənətlənmiş zanbaq" (1610) adlandırılan bu miniatürünü rəssam bir qızın gənc yaşında zanbaq gülünün ətrindən öldüyünə görə belə adlandırmışdı. Bu miniatürdə qırmızı, oxra və bənövşəyi rənglərdən, kənar hissələrindəki ornamentlərdən fars ənənələrini hiss etmək olar. Arxa fonda isə gənc qızın məzarı və kəpənək təsvir edilmişdi. 1621-ci ildən etibarən rəssamın yaradıcılığının son dövrlərini Cahangirin zebrlərinə həsr etdiyi miniatürlər mühüm yer tutur. Mansurun əsərləri dünya muzeylərində olmaqla bərabər Hindistan Milli İncəsənət və Tarix Muzeyində də saxlanılır.

Mansurun quşlarının təsviri həqiqətə əsaslanırdı. O, həmçinin öz fantaziyasına uyğun olaraq bəzi quşların təsvirini çiçəklər və həşəratlarla bərabər verərək kompozisiyanı daha da canlandırırdı. Quşlar və heyvanlar dinamik vəziyyətdə və ya qidalanma mövqeyində təsvir edilirlər. O, tez-tez bitki və həşəratların fonunda və Moğol əsərlərinin xarakteristikası olan xırda elementlərin təsvirini, İrana xas olan çiçəklərin açmasını verir, bunu xüsusilə "Cənnət bağı" (1622, Metropoliten muzeyi) adlandırdığı miniatüründə görə bilərik. Əsərin əsas diqqət mərkəzində Hindistan təbiətinin quşları kvadrat çərçivənin içində canlı və rəngarəng təsvir edilmişdir. Xalçanı xatırladan bu kompozisiyada qıraq haşiyələrdə su elementinin təsvirindən istifadə etmişdir. Təbiətin təsviri bütün bu miniatürü əhatə edir.

Mansurun işlədiyi digər əsər isə "Kərtənkələ badam ağacında" (1612, Royal qalereyası) adlanır. Xüsusilə vurğulamaq lazımdır ki, bu əsər iki versiyada rəssam tərəfindən işlənilib. Birinci versiyada kərtənkələ statik formada açıq rəng fonunda təsvir edilmişdi. Əsas versiyada isə daha canlı, dinamik formada işlənən kərtənkələ çiçək açan badam ağacının (burada fars ənənələrini görə bilərik) üzərində əks edilmişdir.

Rəssamın yaradıcılığında portret janrı da mühüm yer tutur. Cahangirin və Əkbərin portretlərini xüsusilə vurğulamaq lazımdır. "Qadın portreti" (1624) əsərində Mansur dinamik hərəkətdə verilən bir hind qadınını təsvir etmişdir. Bəzi tədqiqatçılar bu əsərin Cahangirin sevimli xanımına həsr edildiyini bildirirlər. Geyimdəki rəngarənglik saray daxilində verilməklə daxili aləmin psixologiyası rəssam tərəfindən ustalıqla işlənmişdir. Qırmızı geyimli, hind libasında (Çxiudra) təsvir edilən qadının profildən və əlindəki gül ilə təsviri bu əsərin maraqlı məqamlarından biri kimi vurğulanır.

Mansurun yaradıcılığının son dövrlərində işlədiyi "Cahangirin sarayında rəsmlərini qonaqlara göstərirəm" (1624) əsərində qızılı, göy, qırmızı rənglər ilə saray mühiti təsvir edilmişdir. Perspektivin qurulmasına cəhd edilsə də, bu, uğursuzluqla nəticələnmişdi. Cahangirin obrazı təmtəraqlı şəkildə əsərin sol hissəsində təsvir edilmişdi. Əsas diqqət obyekti isə rəssam Mansur və onun xarici qonaqları təsvir etdiyi əsərlərini göstərən səhnədir. Burada mimikadan, jestlərdə ustalıqla istifadə edildiyini vurğulamaq lazımdır.

Rəssamın yaradıcılığının ən maraqlı məqamlarından biri də portretlərində verdiyi daxili aləmin təsviri və həmin obrazın hansı təbəqəyə malik olduğunu tamaşaçıya çatdırmaqdır. "Moğol sarayında toy" (1624) əsərinin təsvirində rəssam qırmızı rənglərin əhatəsində geyim, məkan, xüsusilə obrazların dinamika və üzlərindəki ifadəli hisslərini xüsusilə vurğulamaq lazımdır.

Mansurun yaradıcılığının son dövrlərində Avropa ənənələrinin təsirini aydın hiss etmək olar. Bu da səbəbsiz deyildi, çünki həmin dövrdə saraya gələn qonaqlar özləri ilə bərabər Avropa rəssamlarının əsərlərini gətirirdilər. "Qoca kişi", "Şlyapalı gənc" adlı iki əsərdə Rembranta xas olan qızılı işıq elementlərini görə bilərik. Arxa fondakı mənzərə rəssamın Avropa ənənələrini də mənimsədiyini göstərir.

Mansur yaratdığı mənzərə və animalistik janrlarda olan əsərləri ilə Moğol məktəbində, xüsusilə Hindistan incəsənətində mühüm yer tutur. Merkuridəki kraterlərdən biri, həmçinin Mansurun adını daşıyır. Mansurun ölümündən sonra Cahangir ona "dövrünün fərqlənmişi" adını vermişdir. ◆

**Ədəbiyyat:**
1. https://en.wikipedia.org/wiki/Ustad_Mansur
2. Special: Book Sources /81-7276-407-1
3. Bosworth, CE; E. van Donzel; B. Lewis; C. Pellat, eds. (1988). The Encyclopaedia of Islam. New Edition. Volume 6. Mand-Marashis. Leiden: R. J. Brill. pp. 424–426.
4. Das, Asok Kumar (2013). Wonders of Nature. Ustad Mansur at the Mughal Court. Marg Publications.
5. Verma S.P. (1999). Mughal Painter of Flora and Fauna Ustad Mansur. Abhinav Publications.

**Резюме**
Одним из самых известных представителей индийской школы живописи в средние века был Мансур. В этой статье анализируется его жизнь и творчество.
**Ключевые слова:** миниатюра, живопись, Индия, монгол, Мансур, школа.

**Summary**
One of the most prominent representatives of Indian painting school in the Middle Ages was Mansur. This article analyzes his life and creativity.
**Key words:** miniature, painting, India, Mongolian, Mansur, school.